Qədim, doğma Qobustanım

# QOBUSTAN

Qobustan Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1992-ci ildən çıxır * İCTİMAİ-SİYASİ QƏZET * №006 (206) avqust 2021-ci il

# Azərbaycan təbiətinin, tarixinin və sənətinin nadir incisidir Şuşa





***Təbiət, tarix, sənət bu şəhərdən heç nəyi əsirgəməyib. Füsunkar mənzərələr, səfalı ab-hava, şəfalı sular təbiətin dağ şəhərinə ərməğanıdır. Qədim qalalar, bürclər, binalar, küçələr, bulaqlar, daşlar - tarixin yadigarlarıdır. Musiqi, şeir bu torpağın hər qarışında yaşayır. Qarabağ tarixinin, Qarabağda yaranan şeir, musiqi sənətinin zəngin ənənələri bu gün də diridir, canlıdır...***

Nə az, nə çox düz 29 ildən sonra yenidən Molla Pənah Vaqifin görüşünə gəlmişdi həmvətənləri. Yenə onun məqbərəsi ətrafında qələbəlik idi. Bəli, qələbəlik, Qələbə ovqatlı qələbəlik, Zəfər ovqatlı qələbəlik. Burada şeir söyləyən də vardı, muğam oxuyan da. Vaqifin nakam ruhu da elə buradakıların bərabərində dayanıb, hamını salamlamaqdaydı.

O müqəddəs ruh ki, 3 onilliyin həsrətindən perik düşmüşdü buralardan, amma çox uzaqlara getməmişdi, elə burda öz can sirdaşlarının, can qardaşlarının gələcəyi günü səbirsizliklə gözləmişdi. Bax, o gün bu gün idi, Molla Pənah Vaqifin məqbərəsinin yenidən açıldığı gün, Vaqif Poeziya Günlərinin yenidən başladığı gün.

Bu gün 39 illik tarixi olan Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra yenidən təşkil olunmuşdu.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin iştirakı ilə 1982-ci il yanvarın 14-də Şuşada Molla Pənah Vaqifin məqbərəsinin və Poeziya Evinin təntənəli açılışı onun milli ədəbiyyata, tarixə, mədəniyyətə böyük marağının təzahürü idi. Məhz bu səfər çərçivəsində ümummilli lider Heydər Əliyev Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş vermiş və həmin ilin 29 iyul - 3 avqust tarixlərində Şuşada Vaqif Poeziya Günləri keçirilmişdi.

Müasir Azərbaycan ədəbiyyatı tarixində öz bənzərsizliyi ilə seçilən Vaqif Poeziya Günləri həmin tarixdən etibarən 1991-ci ilədək hər il avqust ayında şairin vətəni Qazaxdan başlayıb, Şuşanın əsrarəngiz Cıdır düzündə yekunlaşardı. Ədəbiyyatsevərlər arasında böyük maraqla qarşılanan bu günlər çərçivəsində şeir gecələri ilə yanaşı, konsert proqramları da təqdim edilirdi.

Prezident İlham Əliyevin Şuşa şəhərini ölkənin mədəniyyət paytaxtı elan etməsi, burada "Xarıbülbül" musiqi festivalının və Vaqif Poeziya Günlərinin bərpa edilməsi təkcə Şuşa şəhərində deyil, bütövlükdə torpaqlarını işğaldan azad etmiş və ərazi bütövlüyünə qovuşmuş müstəqil Azərbaycanda mədəni həyatın təntənəsinə çevrilib.

Heydər Əliyev Fondunun təşkil etdiyi tədbirin məqbərə önündəki açılış mərasimində çıxışlardan sonra Vaqif Poeziya Günlərinin tarixini əks etdirən videoçarx nümayiş etdirilib. Daha sonra muğam triosunun ifasında "Qarabağ şikəstəsi" səslənib.

Rəsmi açılış mərasimindən sonra tədbir iştirakçıları Molla Pənah Vaqifin bərpa edilmiş və yenidən qurulmuş muzey-məqbərə kompleksini ziyarət ediblər.

"Qafqazinfo"nun məlumatına görə, tədbirin iştirakçılarından olan Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar AZƏRTAC-a müsahibəsində deyir:

"Bu gün xoş təəssüratlar yaşayırıq. Gözlədiyimiz gün gəldi. Şuşa azad olundu. Vaqifin məqbərəsi, Vaqifin ruhu azad olundu. Bu günün şahidi olmaq xoşbəxtlikdir. Taleyimə minnətdaram ki, belə bir gün yaşadım".

Bu məqamda bir neçə məsələni qeyd etməyi özümüzə borc bilirik. Belə ki, bu günə qədər Azərbaycan xalqı öz sevimli şairini bir an da olsun unutmamışdı. Molla Pənah Vaqifin adının UNESCO-nun "2016-2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edilməsi Azərbaycanın çoxəsrlik zəngin ədəbiyyatı tarixində silinməz izlər qoymuş bu qüdrətli söz ustasının yaradıcılığındakı humanist dəyərlərə verilən yüksək qiymətin təzahürü idi. 2017-ci il, həmçinin Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY tərəfindən "Molla Pənah Vaqif İli" elan edilərək, bu çərçivədə tədbirlər keçirilmişdi.

Uzun illərdir dövlətimiz tərəfindən tanınmış şəxsiyyətlərin yubileylərinin yüksək səviyyədə qeyd edilməsi, əsərlərinin nəşri və təbliği Molla Pənah Vaqif irsini də əhatə edib. Prezident İlham Əliyevin "Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında" 2017-ci il 12 yanvar tarixli Sərəncamına əsasən ölkəmizdə şairin xatirəsinə həsr edilmiş elmi-praktik konfranslar, rəsm sərgiləri və digər bu qəbildən olan silsilə tədbirlər keçirilib.

Molla Pənah Vaqif öz dövrünün böyük şairi, mütəfəkkiri və dövlət xadimi olub. Onun yaradıcılığı özünəməxsus realist ədəbi-estetik mövqeyi ilə seçilir. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə bu gün Şuşada keçirilən tədbirdə səslənən şeirlər də, oxunan mahnılar da Vaqif ruhuna çox yaxın idi.

Azərbaycan Yazılar Birliyinin katibi, tanınmış yazıçı-dramaturq İlqar Fəhmi bu günün tarixi əhəmiyyətini belə şərh edir:

"Bir il əvvəl bizə desəydilər ki, gələn il Şuşada Vaqif Poeziya Günləri keçiriləcək, yəqin inanmazdıq. Zaman dəyişdi, bizə yuxu kimi görünən bu arzu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə reallaşdı.

Çox unudulmaz bir gündür. Burada iştirak edən hər bir insanın həyatına, yaddaşına qızıl hərflərlə yazılan bir gündür. Poeziya günləri ənənəvi olaraq 1982-ci ildən qeyd olunurdu. Erməni işğalının başlanması ilə buna ara verildi. Torpaqlarımız işğaldan azad olunandan sonra Vaqifin məqbərəsi yenidən bərpa olundu, poeziya günlərinin keçirilməsi ilə bağlı qərar verildi.

Bu gün açılışını etdiyimiz Vaqif Poeziya Günləri bir neçə gün davam edəcək. Poeziya günləri çərçivəsində çıxışlar, ədəbi simpozium nəzərdə tutulub, sərgilər nümayiş olunur".

Yeri gəlmişkən qeyd etməliyik ki, torpaqlarımız Ermənistanın işğalından azad olunduqdan sonra Azərbaycanın mədəni inkişafında yeni dövr başlayıb. Xalqımıza məxsus tarixi abidələrin bərpası, ənənəvi tədbirlərin yenidən və daha möhtəşəm qeyd olunması qayıdışımızın təntənəsidir. Bu gün də belə bir növbəti təntənəyə şahidlik edirik. Şuşada Molla Pənah Vaqifin məqbərəsinin yenidən ucaldılması bütövlükdən Azərbaycan ədəbiyyatına verilən yüksək dəyərdir.

Bu dəyərin bariz nümunəsi olaraq Vaqif Poeziya Günlərinə ürək dolu sözlə gələnlər sırasında Xalq şairi Sabir Rüstəmxanlı da var. O, Şuşada yenidən bərpa olunan bu şeir bayramının dünyaya bir mesaj olduğunu söyləyir:

"İlk növbədə Şuşanın işğaldan azad olunması, Azərbaycanın qədim mədəniyyət mərkəzinin ruhunun özünə qayıtması, ədəbiyyat adamlarının bura gəlişi, Vaqif məqbərəsinin və Poeziya Günlərinin bərpası son dərəcədə böyük bir tarixi hadisədir. Bu, bizim tariximizin parlaq səhifəsidir.

Əslində, Şuşanın işğaldan azad olunması gücünü əsgərlərimizə bəxş edən Şuşanın ruhu idi, tarixi idi. Şəhid edilmiş vətəndaşlarımızın intiqamını almaq ehtirası idi. O qəhrəmanlığın nəticəsində poeziyamız da öz ənənəsini bərpa etdi, bu ənənə Vaqifin sözü, Şuşanın özü kimi əbədi olacaq".

Bu gün Şuşada əsl bayram av-havası var, hamı danışmaq, fərəhini, sevincini bölüşmək istəyir. Hər kəsin köksündə qalibiyyətin xalqımıza bəxş etdiyi əvəzsiz sevinc hissi var. Hər kəs bu qələbəni, bu zəfəri bizlərə yaşadan Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya, eləcə də ölməz şəhidlərimizə, sağlamlığından keçmiş qazilərimizə öz minnətdarlığını yazdığı şeirdə, oxuduğu nəğmədə ifadə etmək istəyir. Bir sözlə, bu gün Şuşa bir şeir, söz çələnginə dönüb...

# Azərbaycan bölgənin lider dövlətidir

**2003-cü ilin Azərbaycan Respublikasının Prezidenti seçkilərində böyük səsçoxluğu ilə hakimiyyətə gələn cənab İlham Əliyev ilk gündən bildirmişdi ki, o, hər bir azərbaycanlının Prezidenti olacaqdır.**

Biz dəfələrlə şahidi olmuşuq ki, dövlətimizin başçısı regionlara müntəzəm səfərlər edir, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası ilə bağlı verilən tapşırıqlarla yerində tanış olur, lazım gəldikdə əlavə tədbirlərin həyata keçirilməsinə göstərişlər verir. Respublikamızın elə bir bölgəsi, elə bir rayonu yoxdur ki, Azərbaycan Prezidenti dəfələrlə burada işgüzar səfərdə olmasın. Bu səfərlər zamanı baş tutan açılışlar və təməlqoyma mərasimləri görülmüş işlərin həcmini, ölkənin hərtərəfli inkişafını göstərir.

Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin qərb bölgəsinə səfəri çərçivəsində Daşkəsən, Naftalan, Goranboy rayonlarında və Gəncə şəhərində olub, bir sıra obyektlərin açılışında iştirak edib, Ermənistanın günahsız mülki insanlara və enerji infrastrukturuna qarşı həyata keçirdiyi məsuliyyətsiz raket hücumlarının səbəb olduğu cinayət səhnələri ilə tanış olub. Hələ yadımızdan çıxmayıb ki, düşmənin Azərbaycanın ikinci böyük şəhəri, yarım milyon əhalisi olan və münaqişə zonasından 100 kilometrdən artıq məsafədə yerləşən Gəncə şəhərinə raket hücumları nəticəsində aralarında qadın və uşaqlar da olmaqla 26 mülki şəxs həlak olub, 142 nəfər isə yaralanıb. Şəhərdə mülki infrastruktur obyektlərinə, tarix-mədəniyyət abidələrinə, o cümlədən, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib. Prezident İlham Əliyev həlak olmuş dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq, tamamilə dağılmış yaşayış binalarının ətrafına gül düzüb.

Səfər çərçivəsində Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verərək, son zamanlar ölkəmiz ətrafında baş verən siyasi prosesləri geniş şərh edib. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin üzv dövlətlərin təşəbbüsü ilə daha bir il uzadılması ilə bağlı məlumat verən dövlət başçısı bildirib ki, bunun bir neçə səbəbi var. Birinci növbədə, Azərbaycanın sədrliyi dövründə bütün üzv ölkələr görüblər ki, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur. Bakı Zirvə görüşündə rəsmən Azərbaycan sədrliyi öz üzərinə götürüb. Azərbaycan lideri bəyan edib ki, üzv ölkələrin maraqlarının müdafiəsi üçün hər şeyi edəcək, beynəlxalq hüququ və ədaləti müdafiə edəcək. Ötən müddət ərzində rəsmi Bakı öz vədlərinə lazımınca əməl edib. Bunun ən gözəl nümunəsi İkinci Qarabağ müharibəsidir. Bununla bağlı dövlət başçısı qeyd edib: "Biz təkbaşına, bütün təzyiqlərə və təhdidlərə baxmayaraq, beynəlxalq hüququ və ədaləti bərpa etdik. Əlbəttə ki, bu tarixi Qələbə bütün üzv ölkələr tərəfindən bizə olan hörməti daha da artırdı. Eyni zamanda, biz sədrliyimizə çox böyük məsuliyyətlə yanaşmışıq. Mən sədrliyimizin ilk aylarında demişdim ki, biz buna formal yanaşmırıq. Çünki Qoşulmama Hərəkatının 60 illik tarixi var və bu müddət ərzində müxtəlif sədrlər olubdur. Bəziləri buna laqeyd yanaşıblar. Sadəcə olaraq, necə deyərlər, bir status kimi formal yanaşırdılar. Bizim yanaşmamız isə çox dəqiqdir, məsuliyyətlidir və məqsədə hesablanmışdır. Biz üzv ölkələrin maraqlarını beynəlxalq tribunalarda müdafiə edirik, onlar da bizi müdafiə edirlər". Prezident deyib ki, Azərbaycan bütün vasitələrlə üzv ölkələrə kömək edir. Bütün bu amillər və 44 günlük Vətən müharibəsində tarixi Zəfərimiz ölkəmizə olan hörməti daha da artırıb və üzv ölkələr görüblər ki, Azərbaycan Qoşulmama Hərəkatına bir il də sədrlik etsə, 2023-cü ilə qədər hərəkatın nüfuzu daha da artacaq, təsir imkanları genişlənəcək. Eyni zamanda, tarixdə ilk dəfə olaraq, Qoşulmama Hərəkatının Zirvə görüşündə Avropa İttifaqının yüksəkvəzifəli şəxsi - xarici siyasət üzrə xüsusi nümayəndə iştirak edib. Azərbaycan lideri Qoşulmama Hərəkatının digər beynəlxalq təşkilatlarla əməkdaşlığı məsələsini bu yaxınlarda Azərbaycanda səfərdə olmuş Avropa İttifaqı Şurasının sədri Şarl Mişellə də müzakirə edib. Bu əməkdaşlığın böyük perspektivləri var. Şarl Mişelin ölkəmizə səfəri haqqında danışan dövlət başçısı onu yüksək qiymətləndirib. Qeyd edib ki, bu, Avropa İttifaqı-Azərbaycan siyasi əlaqələrinin inkişafına xidmət göstərən bir səfərdir. Mütəmadi olaraq qarşılıqlı səfərlər həyata keçirilir. İllər keçdikcə əməkdaşlığın həcmi də, əhatə olunan sahələr də artır. Əgər fəal əməkdaşlıq enerji məsələlərindən başlamışdısa, indi daha geniş sahəni əhatə edir. Bu gün Azərbaycanın təşəbbüsü ilə inşa edilmiş Cənub Qaz Dəhlizi həllini tapıb. Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının sədri Azərbaycan və Avropa İttifaqıdır. Ona görə siyasi nöqteyi-nəzərdən bu səfərin çox böyük əhəmiyyəti var: "Mən cənab Mişelə də görüş zamanı bildirdim ki, bizim 9 üzv ölkə ilə strateji tərəfdaşlıq haqqında sənədlər - ya sazişlər, ya bəyannamələr qəbul edilib və imzalanıb. Bu, Avropa İttifaqının üçdəbir hissəsidir. Bu, nə deməkdir?



Deməк, Avropa İttifaqının üçdəbir hissəsi Azərbaycanı strateji tərəfdaş hesab edir". Prezident İlham Əliyev bildirib ki, Avropa İttifaqı və Azərbaycan hazırda yeni saziş üzərində çalışırlar. Sazişin 90 faizi razılaşdırılıb və bəzi məsələlərlə bağlı bizim narahatlığımız nəzərə alınsa, saziş yaxın aylarda imzalana bilər. Ticarət sahəsində də Azərbaycanın əsas tərəfdaşı Avropa İttifaqıdır - təxminən 40 faiz. İxracla bağlı da əsas tərəfdaşımız Aİ-dir. Biz Avropa İttifaqına ildə 6,8 milyard dollarlıq məhsul ixrac edirik. İdxal isə təxminən 2,5 milyard dollardır. Bundan əlavə, Şarl Mişel Azərbaycanda olarkən Şamaxı şəhərinə səfər edib, Cümə məscidində olub. Prezident Aİ rəsmisinin tarixdə ilk dəfə Azərbaycanın regionuna səfərini çox yüksək qiymətləndirib. Onun fikrincə, bu, çox gözəl bir mesajdır, gözəl jestdir. Şamaxıda ona Ələt Beynəlxalq Dəniz Ticarət Limanının fəaliyyəti, Ələt Azad İqtisadi Zonasının gələcək fəaliyyəti və turizm imkanları ilə bağlı təqdimat edilib. Bu yaxınlarda Azərbaycana səfər etmiş Avropa Komissiyasının genişlənmə üzrə komissarı da Ələt Dəniz Ticarət Limanına baş çəkib. Bütün bunlar onu göstərir ki, Avropa İttifaqı Azərbaycanı artıq nəinki önəmli nəqliyyat, logistika mərkəzi kimi tanıyır, həm də ölkəmizin potensialına da arxalana bilir. Ancaq Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsi ilə bağlı təşəbbüs irəli sürəndə Avropa Azərbaycanı dəstəkləməmişdi. ABŞ isə bunun əleyhinə çıxmışdı. Ermənistana görə. Amma Azərbaycan, Türkiyə, Gürcüstan bunu bacardı.

Azərbaycan Prezidenti Şarl Mişelin Bakıda olarkən bir dəfə də olsun "Dağlıq Qarabağ" və "status" sözlərini işlətməməsi, eləcə də İrəvanda olarkən Ermənistanla sərhədə dair "mübahisəli ərazilər" sözlərini işlətməsi ilə bağlı bildirdi ki, bu vəziyyət Ermənistanda böyük məyusluğa səbəb olub. Çünki onlar hələ də müharibədən tam nəticə çıxarmayıblar: "Onlar İkinci Qarabağ müharibəsini unutmamalıdırlar. Şarl Mişel İrəvanda olarkən sərhəd ərazilərini mübahisəli ərazilər adlandırdı. Sözün düzü, mən də bu ifadə ilə razı deyiləm. Çünki biz hesab edirik ki, bu, bizim ərazilərdir. Mən hesab edirəm ki, bu, Zəngəzur ərazisidir. Zəngəzur isə bizim dədəbaba torpağımızdır".

Prezident Ermənistanın yenə də xülyalarla yaşadığını bəyan edib. Onlar postmüharibə reallıqları ilə barışa bilmirlər. Azərbaycanın tarixi Zəfəri onların bütün ideoloji sütunlarını darmadağın edib. Onlar 30 il ərzində özləri haqqında olmazın yalanlar uydurublar, guya onların yenilməz ordusu var, erməni xalqı döyüşkən xalqdır: "Bəs nə oldu? Məhv etdik, darmadağın etdik, 44 gün ərzində yox etdik. Göstərdik ki, Azərbaycan xalqı müzəffər xalqdır. Göstərdik ki, onların bütün təbliğatı mifdir, mifologiyadır". Azərbaycan lideri xəbərdarlıq edib ki, Ermənistan əvvəlki səhvləri buraxmamalıdır. Çünki onların yersiz və qəbuledilməz addımları, bəyanatları İkinci Qarabağ müharibəsi zamanı onlara çox baha başa gəlib: "Şarl Mişelin statusu, Dağlıq Qarabağ sözlərini işlətməməsi, əlbəttə, çox müdrik bir addım idi. Bu, dövlət xadiminin addımı idi. Biz bunu qiymətləndiririk və Ermənistan da bundan nəticə çıxarmalıdır. Nə status var, nə Dağlıq Qarabağ". Prezident izah edib ki, "Dağlıq Qarabağ" sözündən münaqişəyə görə istifadə olunub. Müharibə başa çatandan, münaqişə öz həllini tapandan sonra isə, əlbəttə, Dağlıq Qarabağdan danışmaq yersizdir. Yəni, Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı inzibati ərazi yoxdur: "Status məsələsi də, həmçinin. Mən müharibə başa çatandan sonra noyabrın 10-da statusun yerini göstərmişdim. O, hələ oradadır və orada qalacaq yana-yana, əbədi. Ona görə bu məsələ ilə də bağlı başqa fikir ola bilməz". Cənab İlham Əliyevin fikrincə, sovet hökuməti süni şəkildə Azərbaycanın içində bir münaqişə ocağı yaradıb - Dağlıq Qarabağ Muxtar Vilayəti. İndi isə tarix hər şeyi yerinə qoyub. Bu gün orada yaşayanların sayı artıq göstərilsə də, cəmi 25 min adam yaşayır. Azərbaycan müxtəlif texniki vasitələrlə, peykimizlə bunu dəqiq müəyyənləşdirib: "Biz hər şeyi görürük, Xankəndini də, dəhlizi də. Ona görə buna da son qoyulmalıdır... 25 min insan üçün status yaratmaq hansı məntiqə sığır?.. Mən deyirəm, mən Azərbaycan Prezidenti deyirəm, mən bu məsələni həll etmişəm, vəssalam! Dağlıq Qarabağ yoxdur, status yoxdur! Şərqi Zəngəzur var, hansı ki, mənim sərəncamımla Qarabağ iqtisadi zonası ilə bərabər 7 iyul 2021-ci ildə imzalanıb". Prezident onu da bildirib ki, əgər kimsə status vermək istəyirsə, Amerikada bir milyona yaxın erməni yaşayır, Fransada 500 mindən çox erməni yaşayır, Marsel şəhərində 100 mindən çox erməni yaşayır. Niyə orada status verilmir? Bəs niyə Azərbaycanda bu status verilməlidir? Prezident Avropa İttifaqının Ermənistana 2,6 milyard avro vəsait ayırması məsələsinə də münasibət bildirərək deyib ki, bu, ədalətsiz mövqedir. Çünki Azərbaycan Cənubi Qafqazın ən böyük ölkəsidir həm ərazisi, həm əhalisi, həm də potensialı baxımından. 30 ildir ki, müharibədən ən çox əziyyət çəkən ölkə Azərbaycandır. Ona görə də bu vəsait Azərbaycana verilməlidir: "10 min kvadratkilometr ərazi tamamilə dağıdılıb, erməni vandalları tərəfindən məhv edilib. 100 minlərlə mina döşənilib və bütün binalar, tarixi binalar, bütün infrastruktur məhv edilib. Amma pulu verirlər Ermənistana Avropa İttifaqı ilə növbəti təmaslar əsnasında bu məsələni daim müzakirə edəcəyik, baxacağıq Ermənistana nə qədər qrant verilirsə, ən azı o qədər də bizə verilməlidir. Əgər verilmirsə, qoy desinlər nə üçün? Qoy desinlər ki, bu, ermənipərəstlikdir, qoy açıq desinlər". Dövlət başçısı Rusiya səfəri və Prezident Vladimir Putinlə görüşü haqqında da ətraflı məlumat verib, səfərin nəticələrini müsbət qiymətləndirib. Onun sözlərinə görə, Rusiya Prezidenti ilə həm ikitərəfli məsələlər, həm də postmüharibə vəziyyəti ilə bağlı çox geniş fikir mübadiləsi aparıb. Bildirib ki, Rusiya və Azərbaycan strateji tərəfdaşlardır. Hazırda yeddi yol xəritəsi üzərində iş gedir. Hər bir yol xəritəsi konkret sahəyə aiddir. Hər bir sahə üzrə də yaxşı nəticələr var. Bu dəfə daha çox ticarət, iqtisadi, nəqliyyat, humanitar məsələlər müzakirə edilib. "Şimal-Cənub" nəqliyyat dəhlizi, perspektivlər, eyni zamanda, müharibədən sonra yaranmış vəziyyət, o cümlədən, Zəngəzur dəhlizi və postmünaqişə dövrü ətrafında fikir mübadiləsi aparılıb. Fikir ayrılığı olmayıb. Hər iki ölkə hesab edir ki, müharibə başa çatıb. Ermənistanda heç bir revanşist meyillərə yol verilməməlidir və bundan sonra bölgədə sülh olmalıdır. Ermənistan dəmir yolunun Zəngəzur dəhlizindən keçməsinə razılıq verib. Müharibədən sonra isə buna etiraz edib: "Hər halda bizim mövqeyimiz dəyişməz olaraq qalır və Zəngəzur dəhlizi mütləq açılmalıdır. Ermənistan bunu nə qədər tez dərk etsə, onlar üçün o qədər də yaxşıdır".

Prezident deyib ki, indi Avropa İttifaqı Şurasının Prezidenti Azərbaycana səfər edib, münasibətlər inkişafdadır. Rusiyaya mənim səfərim olub və müzakirə zamanı - bizim görüşümüz bir neçə saat davam etmişdir - bir dənə də olsun mübahisəli məsələ olmayıb. Bir dənə də olsun narahatlıq doğuran məsələ olmayıb. Türkiyə ilə biz iyun ayında müttəfiqlik haqqında Bəyannamə imzaladıq, əlaqələrimizi daha da yüksək səviyyəyə qaldırdıq. Digər qonşu ölkələrlə - İran və Gürcüstanla dostluq əlaqələrimiz güclənir. Qoşulmama Hərəkatı bizə növbəti mandat verib, növbəti dəstək göstərib. Azərbaycan da daxil olmaqla, bu təşkilatda 120 ölkə birləşir. İslam Əməkdaşlıq Təşkilatı daim bizi dəstəkləyir - həm işğal dövründə və həm də müharibədən sonra. İslam Əməkdaşlıq Təşkilatının baş katibi xüsusilə bu dəstəyi ifadə etmək üçün Azərbaycana gəlmişdir. Görün, bütün aparıcı dünya gücləri ilə bizim əlaqələrimiz nə dərəcədə səmimidir, səmərəlidir və bizim məqsədlərimizə cavab verir. Səbəb nədir? Səbəb bizim düzgün siyasətimizdir, səbəb bizim dürüstlüyümüzdür, sözlə imza arasındakı vəhdətdir və səbəb bizim daxili gücümüzdədir.

# Şahin Seyidzadə Qobustan Gənclər Mərkəzində qəbul keçirib






***Milli Məclisin 50 saylı Abşeron-Qobustan seçki dairəsi üzrə deputatı Şahin Seyidzadə tərəfindən Qobustan Gənclər Mərkəzində fərdi vətəndaş qəbulu keçirilib.***

İyul ayının 23-də Qobustan rayonunda Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının tərəfdaşlığı ilə keçirilmiş qəbulda hüquqi yardımla bağlı müraciətlər səsləndirilmişdir.

Ümumilikdə 12 vətəndaşın iştirak etdiyi qəbulda mülki, əmək, cinayyət məcəllərinə dair məsləhətlər verilmiş, müraciətçilərin sualları cavablandırılmışdır.








***Keçmişdən indiyədək bütün pandemiyalardan və ya kütləvi infeksiyalardan yeganə çıxış yolu vaksinasiya olub. Elə indi də koronovirusla mübarizədə ən effektiv üsul məhz vaksinləmədir. Vaksin vurularkən insanın İmmun sistemi vaksini antigen kimi qəbul edir və ona qarşı anticisimlər yaradır.***

# VAKSİNASİYA CƏMİYYƏTİMİZ VƏ ÖLKƏMİZ ÜÇÜN OLDUQCA ÖNƏMLİDİR

İnsanın orqanizmi peyvənd vasitəsilə virusla tanış olduğu üçün artıq xəstəliklə qarşılaşanda hazırlıqlı olur və hər hansı ağırlaşmanın qarşısı alınmış olur. Vaksin öldürülmüş və ya zəiflədilmiş mikroblar və onların ifraz etdiyi bəzi antigen xassəli maddələr olduğu üçün xəstəliyə yoluxma zamanı qarşıya çıxan canlı virusla müqayisədə heç bir təhlükəsi yoxdur .

Bu bir həqiqətdir ki, dünya pandemiyadan qurtulmayınca, tək bir ölkənin ona qalib gəlməsi mümkün deyil. Pandemiyanın tamamilə aradan qaldırılması üçün kütləvi immunitetin formalaşması lazımdır. Bunun üçün də ən əlverişli yol vaksinasiyadır. Artıq dekabrdan dünyanın əksəriyyət ölkəsində "COVID-19" əleyhinə peyvəndləmə aparılır.

Vaksin etdirmək insanı və ətrafındakıları qorumaq üçün ən yaxşı üsuldur. İnsanı 1 və ya 2 həftə xəstə edən "COVID-19" virusu qohumlar, uşaqlar və ya iş yoldaşları üçün ölümcül ola bilər. Dünyada hər il yüzlərlə insan peyvənd olunmadığı üçün vaksin tövsiyə edilən xəstəliklər ucbatından həyatını itirir, uşaqlarına, valideynlərinə və məsuliyyət daşıdığı insanlara qarşı öz öhdəliklərini yerinə yetirə bilmir. Bunun real keys olmasının səbəbi, zənnimcə konspiraloji nəzəriyyələrin mövcudluğudur. Müəyyən bir kütlə insanlar hansısa səbəbdən elmin və dövlətlərinin tövsiyyələrindənsə, əsassız olan nəzəriyyə və fikirlərə inanmağa daha çox meyilli olurlar. Vaksinlər xəstəliyə yoluxma zamanı ağırlaşma və ölüm hallarının qarşısını alan təhlükəsiz vasitədir. İmmun sistemi vaksini antigen kimi qəbul edir və ona qarşı anticisimlər yaradır. Orqanizm peyvənd vasitəsilə virusla tanış olduğu üçün artıq xəstəliklə qarşılaşanda hazırlıqlı olur və ağırlaşmanın qarşısı alınır. Vaksin öldürülmüş və ya zəiflədilmiş mikroblar və onların ifraz etdiyi bəzi antigen xassəli maddələr olduğu üçün xəstəliyə yoluxma zaman qarşıya çıxan canlı virusla müqayisədə heç bir təhlükəsi yoxdur. Bütün klinik yoxlamalar 10 minlərlə insana tətbiqi zamanı bəzi hallarda yalnız zəif allergik reaksiya ilə nəticələnmişdir.

Pandemiya ilə uğurlu və çevik mübarizə siyasəti Azərbaycanın dünyada vaksinasiya prosesinə başlayan ölkələr sırasında ilk cərgədə qərarlaşmasına səbəb oldu. Bu gün Azərbaycanda əhalinin 4 növ vaksin seçimi var. Onların hər biri effektiv və təhlükəsizdir. Ümumiyyətlə, hər zaman yoluxucu xəstəliklər zamanı yeganə xilas peyvənd olub. Hətta əsrlərin təcrübəsi "peyvəndlənməyi seçmək yaşamağı seçmək deməkdir" reallığını yaradıb. Təsadüfi deyil ki, 1916-1920-ci illərdə 2 milyardlıq dünya əhalisinin 30 faizi ispan qripinə yoluxmuş, bu təhlükəli virus 50 milyon insanın ölümünə səbəb olmuşdu. Bu rəqəm birinci Dünya müharibəsində həlak olan insanların sayından çoxdur.

Ölkəmizdə vaksinasiya prosesinə yanvarın 18-dən start verilib. Bu ilk olaraq səhiyyə işçilərinin peyvəndlənməsi ilə başlanılıb və mərhələli şəkildə həyata keçirilir. Proses genişləndikdən sonra ölkədə vəziyyətin daha da yaxşılaşacağına ümidlər çoxdur. Prezident İlham Əliyev də Azərbaycan Televiziyasına müsahibəsində ölkədə aparılan vaksinləmə prosesindən danışarkən həyata keçirilən işləri müsbət qiymətləndirib. Dövlət başçısı Azərbaycanın Cənubi Qafqazda vaksinasiyaya start verən ilk ölkə olduğunu qeyd edib: "Eyni zamanda yerləşdiyimiz bölgədə Azərbaycan birincilər sırasındadır. Onun nəticəsidir ki, pandemiyanın ilk günlərindən işlər düzgün qurulmuşdur, bütün lazımi addımlar atılmışdır, beynəlxalq təşkilatlarla təmaslar qurulmuşdur. Biz COVAKS təşəbbüsünün üzvüyük və COVAKS xətti ilə müxtəlif vaksinləri ölkəmizə gətirəcəyik. Eyni zamanda biz bir neçə şirkətlə vaksinlərin ölkəmizə gətirilməsi ilə bağlı müqavilələr bağlamışıq. Amma onların bəzilərinin icrası indi yubanır, yəqin ki, bax dediyim bu səbəblərə görə. Eyni zamanda biz artıq 4 milyon doz vaksin sifariş etmişik və onların artıq Azərbaycana gəlməsi təmin edilib. Hazırda respublikamızda vaksinasiya prosesi uğurla davam etdirilir və vətəndaşlara vaksin növü ilə bağlı verilən seçim imkanları da artırılır.

Ölkəmizdə "AstraZeneca", "Pfizer", "Sinovac" və "Sputnik V" peyvəndləri istifadə olunur. Sözü gedən vaksinlərin hər biri dünya standartlarına cavab verən, effektivlik faizi yüksək vaksinlərdir. Sinovacın effektivliyi 97 faiz göstərici ilə dünya mütəxəssisləri tərəfindən sübut olunub. "Pfizer" isə 43 mindən çox şəxs üzərində test edildikdən sonra 95 faiz qorunma qabiliyyətinə malik olduğu isbat olunub. "Sputnik V" və "Astrazeneca" isə dünyanın bir çox ölkələri tərəfindən lisenziyaya sahib peyvəndlərdir. Yanvarın 18-dən başlayaraq Azərbaycanda vaksinasiya başlamışdır. Müqayisə üçün deyə bilərəm ki, Avropa İttifaqında bu, keçən il dekabrın 18-də başlamışdır. Yəni bir aydan sonra artıq Azərbaycan vətəndaşları bu vaksinləri alırlar, peyvənd olunurlar, əlbəttə ki, bu, vaksinasiya sahəsində də bizim səmərəli işimizin təzahürüdür.

Qeyd etmək istərdim ki, indiyədək ölkə əhalisinin 20 faizdən çoxu vaksin olunaraq koronovirus əleyhinə müdafiə mexanizmini həyata keçirmişdir. Ölkəmizdə peyvəndləmənin nəticəsini artıq görməyə başlamışıq. Belə ki, hazırda Azərbaycanda koronavirusla bağlı vəziyyət sabitləşib, gündəlik yoluxma sayları azalıb, ölüm sayı nəzərə çarpacaq dərəcədə aşağı düşüb. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesabatlarına nəzərə salsaq bu nəticələri nəinki ölkəmizdə bütün dünyada da görmüş olarıq.

Ətrafdakıları qorumaq naminə hər kəs peyvənd olunmalıdır. Bununla da ilk növbədə hamilə qadınlar, süd verən analar və yaşı 18-dən aşağı olan şəxslər, eləcə də bütün cəmiyyət qorunmuş olar. Unutmamalıyıq ki, nə dünyada, nə də Azərbaycanda pandemiya bitməyib. Məhdudiyyətlər götürüldüyü zaman istəristəməz rəqəmlər yenidən artacaq. Ona görə də hər kəs qaydalara məsuliyyətli yanaşmağa davam etməlidir. Məhz bu zaman mövcud vəziyyəti olduğu kimi saxlaya bilərik.

# "Vətən Müharibəsi Qəhrəmanı" medalını şəhid gizir Elyar Vəliyevin oğluna Qobustan Rayon İcra Hakimiyyətinin başçısı cənab Adil Məmmədov təqdim etdi







**Azərbacan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə gizir Elyar Arif oğlu Vəliyev ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" medalı ilə təltif edilmişdir. Qobustan Rayon İcra Hakimiyyətində medalının təqdimedilməsi mərasimi keçirilmişdir.**

Tədbirdə Şəhidin həyat yoldaşı və oğlu, Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qobustan bölməsinin rəisi İxdiyar Əhmədov, Qobustan Rayon İcra Hakimiyyəti başçısının müavinləri iştirak edirdilər.

Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra tədbiri giriş nitqi ilə açan Rayon İcra Hakimiyyəti başçısı Adil Məmmədov bildirdi ki, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsi-



nə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Elyar Vəliyev "Vətən Müharibəsi Qəhrəmanl" medalı ilə təltif edilmişdir.

"Vətən Müharibəsi Qəhrəmanı" medalını şəhid gizir Elyar Vəliyevin oğluna Qobustan rayon İcra Hakimiyyətinin başçısı cənab Adil Məmmədov təqdim edərək söylədi ki, Azərbaycanın müstəqilliyini və ərazi bütövlüyünü hər şeydən üstün tutan, bu yolda ən uca Zirvə - Şəhidlik məqamına yüksələn igid Vətən oğulları ilə fəxr edirik. Şəhidin həyat yoldaşı ərinin Vətən uğrunda həlak olduğunu və bununla fəxr etdiyini dedi. O, ərinin xatirəsinin əziz tutulduğuna, göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkürünü bildirdi."

Qeyd edək ki, Vəliyev Elyar Arif oğlu 1991-cü ildə Qobustan rayonu Sədəf kəndində anadan olmuşdur. Orta məktəbi öz doğulub boya başa çıxdıqı kənddə oxumuşdur. Mehriban, təvazökar, gözləri həyat eşqi ilə alışıb yanan bu oğlan qısa müddətdə həm müəllimlərinin, həm də sinif yoldaşlarının sevimlisi olmuşdu. Bu dəliqanlı, yerə göyə sığmayan oğlanın peşə seçimi də bizi təəccübləndirmədi. Hərb yolunu seçdi. O, hərbi xidmətini Xüsusi Təyinantlı dəstənin tərkibində etmişdir. Hərbiyə olan həvəsi onu xidmətini bitirdikdən sonra da qalıb müddətdən artıq xidmət etməyə sövq etmişdir. Xüsusi Təyinantlı Dəstənin tərkibində xidmət edən Elyar Vəliyev Gizir rütbəsini almışdır. Elyar Vəliyev torpaqlarımızın tezliklə işğaldan azad olacaqını deyirdi. Azərbaycan Ordusunun giziri olan Elyar Vəliyev 2020-ci il sentiyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Elyar Vəliyev oktyabrın 19-da Qubadlı döyüşləri zamanı Qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən ölümündən sonra şəhid gizir Elyar Vəliyev "Vətən Müharibəsi Qəhrəmanı " medalı ilə təltif edilmişdir.

# Cənnətdəki ilk doğum günün mübarək! Bu gün İkinci Qarabağ müharibəsinin şəhidi Quliyev Həsən Yalçın oğlunun doğum günüdür

***Şəhidlik - insanın Vətənə olan sevgisinin həyat-ölüm astanasında qeyd-şərtsiz şəhadət tapdığı ali məqamdır. Şəhidlər Vətən savaşından məğrurluqla çıxıb, bir anın içində milyonların əzizinə, Vətən oğluna çevrilib ölümü ilə də bu torpağı şərəfləndirənlərdir. Vətən, şəhidlərin mübarək çiyinlərində sabahlayır. Buna görə də onlar and yerimiz, qürur mənbəyimizdir! Ürəyi Vətən eşqi ilə döyünən igidlərdən biri də Həsən Quliyev idi.***

Bu gün onun doğum günüdür!

Cənnətdəki ilk doğum günün mübarək, nur üzlü Şəhidimiz!

Bu gün 27 sentyabrda başlanan Vətən Müharibəsində torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmiş igidlərdən birinin, Quliyev Həsən Yalçın oğlunun doğum günüdür. Quliyev Həsən Yalçın oğlu 09.07.2002-ci ildə Qobustan rayonu Sündü kəndində anadan olmuşdur. 2020-ci il iyul ayının 17-si hərbi xidmət üçün Füzuliyə yola düşüb. Quliyev Həsən əsgər getdiktən 3 ay sonra isə ikinci Qarabağ müharibəsi başlayıb. İlk döyüşü Füzulidə başlayıb. Füzuli və Xocavənd rayonları uğrunda gedən döyüşlərdə şücaətlə iştirak edib. Noyabrın 1-i Şuşa istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Sündü kəndində dəfn olunmuşdur. Qobustan rayon İcra Hakimiyyəti Başçısı Aparatının üzvləri Quliyev Həsən Yalçın oğlunun doğum günündə şəhidin məzarını ziyarət etmiş, məzarı üzərinə gül dəst-



ləri qoymuşdur, Qobustan RİHBA-nın üzvləri ziyarətdə iştirak edən şəhid valideyinləri ilə söhbət etmiş, şəhidlərimizin əbədi ehtirama layiq olduğunu bildirmiş, Vətənimiz üçün gərəkli övlad böyütdüklə-ri üçün onlara təşəkkür etmiş və şəhid ailələri, Vətən müharibəsi iştirakçıları ilə bağlı dövlətin mühüm tədbirlər gördüyünü diqqətə çatdırmışdır. Şəhid atası Quliyev Yalçın dövlət səviyyəsində şəhid ailələrinə göstərilən diqqət və qayğıdan razı qaldığını bildirmiş və ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevə minnətdarlığını ifadə etmişdir.

Ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli sərəncamı ilə şəhid Həsən Quliyev "Füzuli uğrunda" 25.12.2020-ci il tarixli sərəncamı ilə "Xocavənd uğrunda" və "15.12.2020-ci il tarixli sərəncamı ilə "Vətən uğrunda" medalları ilə təltif olunub.

Uca Tanrıdan vətənimizin azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda canını fəda etmiş Şəhidlərimizə rəhmət diləyirik!

# Şəhidlik zirvəsinə ucalan Mayılov Murad Gülümxan oğlu

***Mayılov Murad Gülümxan oğlu 28 may 1998-ci ildə rayonumuzun Nabur kəndində anadan olub. Beş övlad atası olan Gülümxan kişi ömür-gün yoldaşı ilə birlikdə övladlarını böyüdüb, boya-başa çatdırmışlar.***



Murad Əbülfəz İbrahimov adına Nabur kənd tam orta məktəbini bitirmişdir. 2016-ci ildə həqiqi hərbi xidmətə çağırılmış və 2018-ci ildə ordudan ehtiyata buraxılmışdır.

Vətən Müharibəsi başlamamışdan öncə Murad hərbi təlimlə əlaqədər xidmə-tə çağırılmışdır. Məlum Vətən Müharibəsi başlanan gündən Murad da öz hərbçi yoldaşları ilə birlikdə döyüşə qatılmışdır.Onun döyüş yolu Füzuli,Cəbrayıl ,Xocavənd və Şuşa istiqamətindən keçib.Həmin torpaqların alınmasında düşmənə sarsıdıcı müqavimət göstəriblər.Şuşa ətrafında Muradgil kəşfiyyat bölüyünə qoşulub.

Sonuncu döyüş zamanı Muradın da iştirak etdiyi bölükdən 9 nəfərin önə getməsi tapşırığı verilib.Murad birinci olaraq önə çıxıb.9 noyabr 2020-ci ildə "Qırmızı bazar" adlanan yerdə qızğın döyüşləri olub.Həmin döyüşdə 3 nəfər yaralanıb, Murad isə qəhrəmancasına şəhid olub. Hansı ki, böyük qələbəmizin son günləri idi.Təəssüf ki, rabitə əlaqəsi olmayıb.

Murad Mayılov Nabur kəndindəki "Şəhidlər Xiyabanı"nda dəfn olunub.

Ali Baş Komandan İlham Əliyevin sərəncamına əsasən Murad "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", Xocavəndin azad olunmasına görə" və "Vətən uğrunda" medallarına layiq görülüb.

Şəhidimiz haqqında xoş ürək sözləri bildirildi: Ə.İbrahımov adına məktəbin direktoru Zəfər Məmmədov: - Murad məktəbimizin ən sevimli şagirdlərindən idi.Öz vətənpərvərliyi ilə yoldaşlarından seçilirdi.Həmişə dəftərlərini üçrəngli bayrağımızın şəkilləri ilə bəzəyirdi.Bayraq onun and yeri idi. O, vətənimizin ərazi bütövlüyü uğrunda gedən döyüşdə şəhid oldu.Valideynlərinə, qohumlarına səbr diləyirəm. Zülfüxan Mayılov-şəhidin qardaşı:Qardaşım haqqında danışmaq mənə çox çətindir. Amma fəxr edirəm ki, O, vətən yolunda şəhidlik zirvəsinə ucaldı.Murad hələ həqiqi hərbi xidmətdə olanda da onun komandirləri tərəfindən bizə fəxri fərmanlar gəlirdi.Həmin fəxri fərmanlarda Muradın nizam-intizamlılığı,hərbi çevikliyi göstərilirdi.

Muradov Mahir-şəhidin qohumu: Muradın vətənə bağlılığı onun gənc yaşlarından hiss olunurdu.Valideynlərinə,qohumlarına bağlı bir gənc idi. Onun əsgər yoldaşlarından biri söylədi ki,biz Muradı yaralı vəziyyətdə xidməti maşınla gətirərkən O, "ay Allah mənə bir az ömür ver,ata-anamı, bacıqardaşlarımı,qohumlarımı görüm" kəlmələrini bildirdi.Biz həmişə bütün şəhidlərimizin ruhunu qəlbimizdə əbədi yaşadacağıq.

Bildirək ki, kəndin "Şəhidlər Xiyabanı"na gedən yolun çəkilməsi şəhidin qardaşı Zülfüxanın öz vəsaiti hesabına başa gəlib.

Allah şəhidlərimizə rəhmət eləsin

# VƏTƏN MÜHARİBƏSİ QƏHRƏMANI ELYAR VƏLİYEVİN MƏZARI ZİYARƏT OLUNDU

*Vətən müharibəsinin hər bir günü bizim şanlı tariximizdir.*
***İlham Əliyev***

***44 günlük davam edən haqq savaşında dünya azərbaycanlılarının ürəyi döyüş meydanında Azərbaycan əsgərinin yanında idi.***

Ali Baş Komandanın qətiyyətindən, xalqın dəstəyindən güc alan ordumuzun cəsur oğulları,hava şəraitindən,ərazının rel-yefindən asılı olmayaraq, düşmənə qarşı vuruşdu və qalib gəldi.Müharibə təbii ki,itki-siz olmur.Döyüş tapşırığını lazımınca yerinə yetirərkən şəhidlik zirvəsinə yüksələn igid oğullarımızın xəbərlərinə üzüldük.Şəhidlik Tanrı dərgahında ən alı zirvələrdən biridir. Onlar Vətən yolunda canlarından belə keçdilər.Bu fədakarlıqlarla adlarını qızıl hərflər-lə yazmağı bacardılar.

XTQ-də qulluq edən gizir Elyar Vəliyev də "Dəmir yumruq" əməliyyatı ilə başlanan və düşmənin rüsvayçı məğlubiyyəti ilə başa çatan Vətən Müharibəsinin ilk günlərindən böyük qələbəyə inam,düşmənə nifrət hissi ilə döyüş meydanına qatıldı.

Elyar Arif oğlu Vəliyev rayonumuzun Sədəf kəndində dünyaya göz açıb ,onun qəhrəmanlığı barədə televizya kanallarında və dövri mətbuatda işiqlanadırılıb və dərc olunub.

Bir daha Elyarın göstərdiyi qəhrəmanlıqları nəzərə çatdırıram:

Öncə Füzülinin , Cəbrayılın , Hadrutun, Xocəvəndin ,Qubadlının alınmasında qəhrəmanlıq göstərərək, ermənlərin "UAZ" markalı maşınını məhv edib.

Hansı ki o maşının içərsində yüksək rütbəli erməni zabitləri olub. İçərsində 30-35 nəfər düşmən əsgəri olan "Kamaz" markalı maşını və 2 ədəd zirehli texnikanı yoldaşları ilə birlikdə partladıblar. Elyar həm də tibbi bacarıqlarına malık idi . O, yaralı yoldaşlarına da döyüş vaxtı tibbi yardım göstərib . Düşmən qərargahına girən bu döyüşçü orda olan zabit heyyətini , rəis başda olmaqla məhv edib. "Qirmazı bazar " adlanan yerdə onların qizğın döyüşləri olub .30 nəfərlə 1000 nəfərədək düşmənə qarşı 5 saata yaxın müqavimət göstərərək, xeyli sayda düşməni məhv edibılər.Sürsatları qurtarıb. O hətta şəhid olmuş yoldaşlarının əl qumbaralarından istifadə edib . Sonra əlbayaxa döyüşə başlayiblar. Lakin bu döyüşdə Elyar 20 oktyabr 2020 -ci il tarixində qəhrəmancasına şəhid olub .Son anda "Allahu Əkbər" kəlməsini dilə gətirib .










Elyar doğulduğu kənd qəbristanlığında dəfn olunub . Cəsur döyüşçümüz ölümündən sonra Ali Baş Komandan İlham Əliyev cənabının 9 dekabr 2020-ci il sərəncamına əsasən "Vətən Müharibəsi Qəhrəmanı " adına layiq görülmüşdür. Eyni zamanda bir sıra medalları bir -birini əvəzləmişdir .

Elyar Vəliyev 4 oğul və 1 qiz atası idi. Sonbeşiklər üçəmdirlər. Son günlərdə saytlarda belə bir yazı verilmişdir.

"40 erməni zabitini məhv edən Elyar Vəliyev kimdir?

- Bax , bu həmin Elyar Vəliyevdir.

Artıq Elyarın məzar daşları atası Arif bəyin şəxsi köməkliyi ilə hazırlanmış və təxminən 20 km-lik məsafədən su xətti çəkilmişdir . Elyarla birlikdə 4 nəfər şəhidin şəkli həkk olunmuş " Xatirə bulağı" inşa edilmişdir . Bütün bunlar Arif bəyin zəhməti nəticəsində başa gəlib.

Elyarın məzarı artıq ziyaratgaha çevrilib .Bu günlərdə Hacıqabul rayonunun Şorbaçı , Paşalı kəndlərinin bir qrup sakinləri və A. Baxşəliyev adına Şorbaçı kənd tam orta məktəbinin bir neçə şagirdi həmin ziyarətgahda olmuşlar. Öncə Elyarın məzarı önünə tər çiçəklər düzülmüş, sonra Şorbacı kənd sakini, məşədi Elnur kənd sakinləri adından Elyara olan ehtiramlarını bildirmiş və dualar oxunmuşdur.

Bu günki, ziyarəti təşkil edən Paşalı kənd sakını Əlif İmanlı da öz ürək sözlərini bildirmiş və onun Elyara həsr etdiyi şeirlər A.Baxşəliyev adına Şorbaçı kənd tam orta məkrəbinin şagirdləri Təhmazova Ramilə, Allahyarova Yağmur,Təhmazov Ramin Allahyarova Rəvanə , Təhmazova Rəvanə , Allahyarova Fidan və balaca Səidə Əmirli tərəfindən söylənilmişdir.

Bu kəndin sakinlərinin verdiyi məlumatlardan o da aydın oldu ki, Udulu kənd ərazisi kimi tanınan bölgənin gəncləri də istər birinci Qarabağ savaşında, istərsə də Vətən Müharibəsində ərazimizin bütövlüyü uğrunda düşmənə qarşı qəhrəmancasına vuruşmuşlar. Hər iki döyüş zamanı bu bölgədən olan gənclərdə Ayaz Baxşəliyev ,baş leytenant Ruslan Rüstəmov ,baş gizir Şöhrət Abdurzamanov , Həsən Qasımov , Elman Qasımov, Şahin Allahyarov, Nicat Tarverdiyev, Cəfər Cəfərov ,Sabir Gülməliyev , Məsud Mirzəyev,Qalası Kərimli, Rövşən Mehbalıyev, Yusif Əliyev, Bayram Məlıkov, şəhid olmuşlar. Göstərdiyi qəhrəmanlıqlara görə Şahin Allahyarov Ali Baş Komandanın sərəncamına əsasən "Vətən Müharibəsi Qəhrəmanı " adına layiq görülmüşdür.

Ziyarətdə iştirak edən XTQ-də xidmət etmiş Şamaxı şəhər sakini olmuş, şəhid Sabirin atası, birinci Qarabağ döyüşlərində iştirak etmiş Ceyhun Heydərov , Qarabağ əlillərinə qayğı ictimai birliyinin Şamaxı filialının sədri Əzim Ağayev, Sədəf kənd sakini Əlgüllah kişi, Elyarın əmisi Əlzaman müəllim ,müəllim Asim Eminov , Sədi Əmirov Elyarla bağlı öz ürək sözlərini bildirmiş və şəhidin valideynlərinə səbr diləmişlər,

"Vətənpərvər" qəzetinin çəkiliş qrupunun rəhbəri Mərdan Eminov Elyarla bağlı xatirələrini öz şeirlər ilə bildirmişdir.

Qobustan Rayon İcra Hakimiyyəti Başçısı Aparatının yeni yaradılmış Vətən Müharibəsi və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Rövşən Dəmirov burada çıxış edərək Arif bəyə və Səmayə anaya belə oğul böyütdükləri üçün təşəkkürünü bildirmişdir. O qeyd etdi ki, Qobustan Rayon İcra Hakimiyyətinin rəhbərliyi bu qəbildən olan ailələri daim nəzərdə saxlayır və onların hər bir problemlərinə diqqətlə yanaşır. Biz də bir şöbə olaraq həmişə şəhid ailələrinin yanındayıq. Hər bir şəhidin məzarı bizim and yerimizdir.

Qarabağ Əlillərinə Qayğı İctimai Birliyinin Şamaxı filialının sədri Əzim Ağayev rəsmi olaraq birliyin "Təşəkkürnamə" sini şəhidimizin atası Arif bəyə təqdim etdi.

Sonda qəhrəmanımızın valideynləri Arif bəy və Səmayə ana bura toplaşanların hamısına öz minnətdarlıqlarını bildirdilər.

Səmayə ana bildirdi ki , belə ziyarətlərlə biz təskinlik tapırıq . Ananın qəhrəmanın məzarı önündəki şəklinə baxışı elə bil ki, aşağıdakı misraların dilində səsləndi:

*Niyə vaxtsız köçdün sən bu dünyadan?*
*Bilmədin bu dərdə dünya yanacaq?*
*Qəlbim yanır bu dözülməz bəladan?*
*Bu nisgilli fəryad kimə qalacaq?*

Allah bütün şəhdilərimizə rəhmət etsin .

***Məhəmməd Bayramov***
***Jurnalıstlər Birliyinin üzvü***

# Cənnətdəki ilk doğum günün mübarək, şəhidim!

***Cənnətdəki ilk doğum günün mübarək şəhidim. Bu gün Şəhid Nadirov Fədail Fərhad oğlunun doğum günüdür.***

Fədail Nadirov 1999-cu il iyulun 23-də Qobustan rayonunun Bədəlli kəndində anadan olub. Azərbaycan Ordusunun müddətdən artıq hərbi qulluqçusu olan Fədail Nadirov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Fədail Nadirov oktyabrın 26-da Füzuli uğrunda gedən döyüşlər zamanı şəhid olub. Qobustan rayonunun Bədəlli kəndində dəfn olunub.

Qobustan Rayon İcra Hakimiyyəti Başçısı Aparatının üzvləri və Qobustan rayon Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qobustan Bölməsinin rəisi Nadirov Fədail Fərhad oğlunun doğum günündə şəhidin məzarını ziyarət etmiş, məzarı üzərinə gül dəstləri qoymuşdur.






Qobustan RİHBA-nın üzvləri ziyarətdə iştirak edən şəhidin valideyinləri ilə söhbət etmiş, şəhidlərimizin əbədi ehtirama layiq olduğunu bildirmiş, Vətənimiz üçün gərəkli övlad böyütdükləri üçün onlara təşəkkür etmiş və şəhid ailələri, Vətən müharibəsi iştirakçıları ilə bağlı dövlətin mühüm tədbirlər gördüyünü diqqətə çatdırmışdır. Doğum günü tədbirində Şəhidimizin atası Nadirov Fərhada şəhid övladının "Füzulinin azad olunmasına görə" medalı təqdim olundu. Daha sonra şəhidimiz Nadirov Fədail Fərhad oğlunun xatirəsinə həsr olunmuş onun adını daşıyan bulağın açılışı oldu.

Şəhid atası Nadirov Fərhad dövlət səviyyəsində şəhid ailələrinə göstərilən diqqət və qayğıdan razı qaldığını bildirmiş və ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevə minnətdarlığını ifadə etmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Fədail Nadirov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Fədail Nadirov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.



# Bir ailənin üç cəsur oğlu

***Beş övlad atası olan Nabur kənd sakini Bayramşah kişi əvvəlcə neft sahəsində, sonra isə doğma kənddə şəxsi təsərrüfatla məşğul olub.***

Ailənin üç övladı Vətən Müharibəsində iştirak edib.

Bəxtiyar 16 avqust 1996-ci ildə anadan olub.Əbülfəz İbrahimov adına Nabur kənd tam orta məktəbini bitirib.İdmana böyük həvəsi olub.Şamaxı şəhərində Taekvando üzrə məşğələlərdə iştirak edib. Bu növ üzrə respublika yarışlarında ikinci yerə çıxaraq 2 dəfə gümüş medala layiq görülüb.

2014-cu ildə həqiqi hərbi xidmətə çağırılmış və 2016-ci ildə ordudan ehtiyata buraxılmışdır.Hərbi sahəyə olan həvəs onu Zaqatala şəhərindəki hərbi kurslara cəlb edir.Çavuş rütbəsi alır.Daxili Qoşunların Xüsusi Təyinatlı Dəstəsinin "Pələnglər" qrupunda fəaliyyət göstərir.2019-cu ildə Gəncə hərbi hissəsindən Biləcəri qəsəbəsin-də yerləşən "Şahinlər" qrupuna yerdəyişmə olunur.Həmin ildə Türkiyədə JÖAK da hərbi kurs keçir.2020-ci ildə XTQ-ın kəşfiyyatçı bölüyünə daxıl olur.

Vətən Müharibəsi başlananda çavuş Bəxtiyar da öz yoldaşları ilə cəbhəyə yollanır.Füzulinin,Cəbrayılın azad olunması uğrunda gedən qızğın döyüşlərdə iştirak edir və onların düşmənə qarşı müqaviməti nəticəsində həmin rayonlarımız işğaldan azad olunur. Bəxtiyarın döyüş zamanı göstərdiyi fədakarlıq hərbi hissə komandiri tərəfindən yüksək qiymətləndirilir.O, döyüşlərin birində-Füzuli rayonu ərazisində 30 oktyabr 2020-ci il tarixində şəhid olur.Nabur kəndindəki "Şəhidlər Xiyabanı"nda dəfn olunur.Bəxtiyar xidməti zamanı bir çox fəxri fərmanlara sahib olub.

Ali Baş komandan İlham Əliyev cənabının sərəncamına əsasən Bəxtiyar "Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medallarına layiq görülüb.

Bəxtiyarın doğulub boya-başa çatdığı evin bir otaqğında onun doğmaları tərəfindən şəhidin "ev-müzeyi" təşkil olunub.

Məmmədov Xəyal Bayramşah oğlu 10 mart 1993-cü ildə anadan olub.Orta təhsilə həmin kənd məktəbində yiyələnib.Həqiqi hərbi xidmətini başa vurduqdan sonra müddətdən artıq xidmət əsasında XTQ-də baş gizir kimi fəaliyyətə başlayır. 27 sentyabr 2020-ci ildə başlanan İkinci Qarabağ Müharibəsinə ilk qatılanlardan biri də Xəyal Məmmədov olur.Onların ilk döyüş yolu Ömər aşırımından başlayır.Xəyal qolun-dan yaralanır.Lakin buna baxmayaraq, döyüşü davam etdirir.İkinci dəfə yaralanır.Qısa zaman məsafəsində müalicə alır.Hadrut istiqamətində Birinci Yüksəklik uğrunda gedən döyüşlərdə düşməni məğlubiyyətə uğradırlar.Növbəti döyüşlərin birində çiyin nayihəsindən yaralanır.Tabor komandirının təkidi ilə Biləsuvar RMX-da müalicə olunur.Fikri ancaq döyüş yoldaşlarının yanında olur və cəhbəyə qayıdır.Qələbəmizin son gününə kimi düşmənə qarşı vuruşur.

Qazimiz Xəyal Məmmədov göstərdiyi qəhrəmanlıqlara görə " Kəlbəcərin azad olunmasına görə" , "Şuşanın azad olunmasına görə" , "Vətən uğrunda" , "Hərbi xidmətdə fərqlənməyə görə üçüncü dərəcəli" medallara və "Bayraq Ordeni" nə layiq görülüb.Hal-hazıda hərbi xidmətini davam etdirir.

Məmmədov Süleyman Bayramşah oğlu 01 noyabr2001-ci ildə anadan olub.O da kənddəki tam orta məktəbi bitirib 2019-cu ildə həqiqi hərbi xidmətə çağırılıb.Daxili Qoşunların N saylı hərbi hissəsində xidmət edib.Onun hərbi xidməti Vətən Müharibəsi dövrünə düşüb.Bir neçə hərbi əməliyyatlarda fədakarlıq göstərib.Hal-hazırda şəxsi təsərrüfatda valideynlərinə kömək edir.Öz cəhbəçi qardaşları ilə fəxr etdiyini bildirir.Qardaşı şəhid Bəxtiyara ürək sözlərini yazdığı şeir parçasının bir bəndi ilə bölüşür:

***Şəhidlik zirvəsinə ucaldın qardaş,***
***Ən uca zirvəyə layiq görüldün.***
***Mənsə qəbrin üstə gələ bilmədim,***
***Yolunda canımdan keçə bilmədim.***

Şəhidimiz Bəxtiyar haqqında da ürək dolusu xoş sözlər eşitdik;

Babaxan Alxanlı müəllim-Şəhidlər haqqında söz düşəndə çox istəyirəm ki, özümü toplayım hərtərəfli danışım, ancaq bacarmıram.Bir qonşu kimi uşaqlıqdan Bəxtiyarın xətrini çox istəyirdim.Fikirimi aşağıdakı şeirimlə bildirirəm:

***Rəhmət bu el balasına,***
***Fəxr eləsin ata-ana.***
***Qarabağdan Qobustana***
***Bəxtiyar tək igid gəlib***
***Kəndimizə şəhid gəlib.***

Babayev Nadir, müəllim - Bəxtiyar oxuduğu müddətdə özünün səmimi rəftarı və nümunəvi davranışı il seçilirdi. O həmişə məktəbdə keçirilən tədbirlərdə və idman yarışlarında fəal iştirak edirdi. Yaxşı yadımdadır son zəng günü Bəxtiyar çıxış edərək bildirdi ki, ən böyük arzum torpaqlarımızın işğaldan azad olunmasında iştirak etmək və lazım olarsa vətən yolunda şəhid olmaqdır.

Əkbərov Ələkbər, qonşu, Bəxtiyarın kirvəsi: Bəxtiyar gözümün önündə böyüyüb.Çox səmimi, vətənini sevən gənc idi. Bir evdən üç hərbçi yetişdirən Bayramşah kişi , Səbirə ana qarşısında belə cəsur oğullar böyütdükləri üçün baş əyirik.

Allah bütün şəhidlərimizə rəhmət etsin.

*Ruslan Şahbazov*
*Məhəmməd Bayramov*

# ŞƏHİD AİLƏLƏRİNİN ZİYARƏTİ





***"Qobustan " qəzetinin əməkdaşları avqust ayının 30 günü Qobustan rayon Nabur kəndində şəhid ailələrini ziyarət etdilər.***

Həmin gün 44 günlük Vətən Müharibəsində torpaqlarımızın işğaldan azad olmasında iştirak edərək şəhidlik zirvəsinə ucalan Məmmədov Bəxtiyar Bayramşah oğlunun və Mayılov Murad Gülümxan oğlunun ailəsini ziyarəti zamanı qəzetin əməkdaşları şəhidlərin valideynləri və yaxınları ilə həmsöhbət oldular.

Söhbət əsnasında bizim qəhrəmanlarımızın keçdiyi qısa, lakin mənalı ömür yolu ilə yaxından tanış oldular. Şəhidlərin ailələri, qonşuları, müəllimləri onlar haqqında geniş danışdılar. Onların keçdiyi döyüş yolundan , hansı istiqamətdə döyüşə başlayıb şəhadətə yüksəldiyi ana qədər ətraflı məlumat verdilər.

Qəzetin əməkdaşları şəhidlərin evlərində onlar üçün hazırladıqları guşələri təqdim etdilər. Orada onlara məxsus əşyalar yer alırdı. Hərbi formalar, medallar , Fəxri Fərmanlar.

Şəhidlərimizin valideynləri Bayramşah və Gülümxan kişi ölkə və rayon rəhbərlərimizin onlara göstərdiyi diqqət və qayğıdan razılıqla danışdılar.

Allah şəhidlərimizə rəhmət eləsin. Valideynlərinə səbr versin.

# "Mənim qəhrəmanım" inşa yazı müsabiqəsi

***Azərbaycan qəhrəmanlar yurdu, igidlər məskənidir. Neçə - neçə ərənlər yetişdirib bu müqəddəs torpaq, ulu diyar ! Bu torpaq Babəklərin, Cavanşirlərin, Koroğluların vətənidir. Vətənimizdə belə qəhrəmanlar yaşamışdır və daim yaşayacaqdır . 44 günlük Vətən müharibəsi bir daha sübüt etdi ki, Azərbaycan igidlər diyarı, qəhrəmanlar ölkəsidir .***

***Ürəyimlə, qanımla***
***Bu torpağa bağlıyam***
***Azərbaycan oğluyam***

Bu misralar Azərbaycanın şərəfli, namuslu, vətənpərvər generalı Polad Həşimova necə də yaraşır . O, polad kimi möhkəm, dağ kimi vüqarlı, zəka sahibi olan gözəl insana məxsus olan xüsusiyyətlərdir.

Azərbaycan Silahlı Qüvvələrinin general-mayoru Polad Həşimov 1975-ci il yanvar ayının 2-də Qəbələ rayonunda anadan olmuşdur. Sonralar ali təhsil almaq üçün Türkiyə Respublikasına getmiş, mükəmməl hərbi təhsilə yiyələnmişdir.

O, 2016-cı ildə aprel döyüşlərində də iştirak etmiş, Lələtəpənin, Cocuq Mərcanlının alınmasında yüksək şücaət göstərmişdir.

2020-ci il iyunun 12-də Tovuz döyüşlərində fəal iştirak edən generalımız iyulun 14-də əsgərlərlə birlikdə qəhrəmancasına şəhid olmuşdur.

O, ölmədi, adını həmişəlik qəlblərə yazdırdı. Azərbaycan xalqının əbədi and yeri oldu, qəhrəman generalımızın əziz xatirəsi daim qəlblərdə yaşayacaq.

Polad Həşimovun ölümü bütün Azərbaycan oğullarını ayağa qaldırdı. Onun və onun kimi şəhid olmuş minlərlə Azərbaycan övladlarının qisasını almaq üçün Ali Baş Komandan və Azərbaycan Ordusu döyüşlərə atılaraq torpaqlarımızı düşmənin əsarətindən azad etdi. Polad Həşimovun arzuları həyata keçdi. Azərbaycan ordusu işğal olunmuş bütüb torpaqlarını azad edərək ərazi bütövlüyünü bərpa etdi.



Bütün şəhidlərimizin ruhu qarşısında baş əyirik .

**Şəhidlər ölməz,**
**Vətən bölünməz!**

***Baxışova Lamiyə,***
***Qobustan Mədəniyyət evinin***
***"Bədii qiraət" dərnəyinin üzvü***

# Beynəlxalq Gənclər Günü qeyd olundu

*”Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahın ümididir”.*

***Heydər Əliyev***

***Qobustan Rayon Gənclər Evi SXM-nin rəhbərliyinin iştirakı ilə Cəmcəmli kəndində Beynəlxalq Gənclər Günü münasibətilə bir qrup gənclərlə tədbir keçirilmişdir.***

Gənclər Evi SXM-nin direktoru Anar İrzaquliyev öncə bu tədbirin təşkilinə görə R. Babaşov adına Cəmcəmli kənd tam orta məktəbinin müəllimi Günay Bayramlıya öz minnətdarlığını bildirərək bura toplaşan gənclər qarşısında çıxış etdi:

- Əziz gənclər, hər il avqust ayının 12-də dünyada Gənclər Günü qeyd olunur. Bu əlamətdar gün gənclərə lazımi diqqət göstərmək, onların nailiyyətlərini təbliğ etmək, cəmiyyətin bütün sahələrində gənclərin iştirakına təkan vermək məqsədi ilə qeyd olunur. Gənc nəslin vətənpərvər tərbiyə olunması, onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün böyük iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadır. Qobustanlı gənclər də öz işləri ilə həmişə ölkəmizə dayaqdırlar. Biz müntəzəm gənclərimizlə görüşlər keçirir və onların hər bir problemlərinə diqqətlə yanaşırıq.







Söz Gənclər Evi SXM-nin bədii yaradıcılıq dərnəyinin rəhbəri, Azərbaycan Yazıçılar Birliyinin üzvü Yusif Nazim Ərəbsoya verildi:

- Əziz gənclər, öncə bu əlamətdar gün münasibətilə hamınızı təbrik edirəm. Bilirsiniz ki, tez-tez bizim tərəfimizdən siz gənclərlə bağlı xalq yaradıcılığına müraciət edirik. Bu da folklorumuzun əbədi yaşamasına dəlalət edir. Məktəbinizin şagirdi Kəmaləddin Əhmədov belə tədbirlərdə öz çıxışları ilə fərqlənir. Biz çalışacağıq ki, siz gənclərlə əlqəmizi daha da möhkəmləndirək.

Sonra fəxri gənclərimizdən Vətən Müharibəsi iştirakçıları- Abdurəşidov Qorxmaz və Əmirov Röyal çıxış edərək bildirdilər ki, daim ölkəmizin çiçəklənməsi yolunda gənclərimizin apardığı işlərin arxasındayıq.

Gənclərdən Bakı Avrasiya Universitetinin tələbəsi Mirzəli Mirzə, Sumqayıt Dövlət Texniki Kollecinin tələbəsi Niftaliyev Rövşən, Şamaxı Dövlət Regional Kollecinin tələbəsi Abıyev Fəxri, tələbə adının astanasında olan Xeyrullayev Xalid, Gənclər Evinin bir çox tədbirlərində fəallıqları ilə seçilən Niftaliyeva Nəzrin, Əhmədov Kəmaləddin və digər iştirakçı gənclər bu əlamətdar günlə bağlı fikirlərini söyləyib, maraq dairələrindən danışdılar.

Sonda Anar müəllim tədbirdə iştirak edən hər bir gənc ilə fərdi söhbət apardı.Onların hansı sahəyə meyl və bacarıqları Yusif Nazim Ərəbsoy tərəfindən qeyd olundu.

***Məhəmməd Bayramov***

# Milli mətbuatın inkişafı

***Mətbuatımıza işıq salan, böyük bir jurnalist, maarifçi ordusu yetişdirən ”Əkinçi” qəzeti həm də mətbuatımızın əzm, fədakarlıq, mübarizə məktəbidir.***

Qəzetin ilk nəşri 1875-ci il iyul ayının 22-də işıq üzü görmüşdü. Çox ciddi senzura altında nəşr olunan qəzetin cəmi 56 nömrəsi çapdan çıxmış, 1877-ci ildə onun nəşrinə qadağa qoyulmuşdur. H.Zərdabinin əsas fəaliyyəti xalqın düşüncəsinə təsir etmək, onu gerilik və cəhalətdən qurtarmaq, millətin mənlik şüurunun inkişafına nail olmağa yönəlmişdi.

”Əkinçi”dən sonra bir-birinin ardınca çap olunan ”Ziya”, ”Ziyayi-Qafqaziyyə”, ”Kəşkül” kimi mətbuat orqanlarında bu məktəbin maarifçilik ideyaları davam etdirilirdi. Adı çəkilən qəzetlərdə fəaliyyət göstərən dövrün görkəmli yazarları, həqiqi mənəviyyat adamları, vətənpərvər ziyalıları insanlara mətbuatın nə qədər böyük məfhum olduğunu, cəmiyyətin həyatında mühüm rol oynadığını aşılamağa çalışırdılar. Bundan sonrakı illərdə Azərbaycanda ”Şərqi-rus”, ”Həyat”, ”Açıq söz”, ”Azərbaycan” kimi qəzetlər, 1906-cı ildə isə mətbuatımızın incisi olan ”Molla Nəsrəddin” jurnalı işıq üzü gördü. Ümumiyyətlə, XX əsrin əvvəllərində nəşr olunan müxtəlif qəzet və jurnallar mövcud ictimai-siyasi sistemin keyfiyyətini əsaslı şəkildə dəyişməyə nail olurdu. Azərbaycan Xalq Cümhuriyyəti illərində, 1918-20-ci illərdə meydana gələn qəzet və jurnallar artıq siyasi mətbuatın yaranmasından xəbər verirdi. Cəmi 23 ay ərzində nəşr olunan ”İstiqlal”, ”Azərbaycan”, ”Açıq söz” kimi qəzetlərin əsas məqsədi Azərbaycan istiqlalını müdafiə etmək, onu qoruyub saxlamaq idi.

Sovet hakimiyyəti dövründə kommunist ideologiyasının güclü təsiri altında fəaliyyət göstərsə də, Azərbaycan mətbuatı milli varlığını qoruyub saxlaya bilmiş, respublikanın ictimai-siyasi həyatında mühüm rol oynamışdır. Bu dövrdə ölkədə qəzet və jurnalların şəbəkəsi genişlənmiş, jurnalistikanın çeşidli növləri meydana çıxmışdır. ”Əkinçi” qəzetinin nəşrə başladığı gün - 22 iyul ölkəmizdə Milli Mətbuat və Jurnalistika Günü kimi qəbul olunmuşdur.




Müasir dövrdə informasiya texnologiyalarının inkişafı bütün dünyada olduğu kimi, Azərbaycanda da mətbuatın davamlı inkişafını təmin edir. Təsadüfi deyildir ki, bu gün ölkədə 5 mindən çox media subyekti var. Bütün dünyada gedən qloballaşma prosesi Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirmişdir, bu gün yüzlərlə jurnalist beynəlxalq təşkilatların dəstəyi ilə təşkil olunan ixtisasartırma və təkmilləşmə kurslarında iştirak edirlər. Azərbaycanda Mətbuat Şurasının formalaşması media sahəsində pərakəndəliyi aradan qaldırmış, 2003-cü il martın 15-də Azərbaycan jurnalistlərinin birinci qurultayında qəbul edilmiş Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları media qurumları arasında problemlərin həllinə müsbət təsir göstərmişdir.

Milli mətbuatımızın bəxtindəndir ki, bu gün müstəqil mətbuatın formalaşması və inkişafına xidmət edən siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə söz və mətbuat azadlığına, kütləvi informasiya vasitələrinə ən yüksək səviyyədə diqqət və qayğı göstərilir. Azərbaycanın artan iqtisadi imkanları mətbuatın inkişafı yolundakı çətinliklərin aradan qaldırılmasına, onun aktual problemlərinin həllinə şərait yaradır. Bundan başqa, milli mətbuatımızın yubileylərinin ölkədə geniş qeyd olunması, KİV-lərə birdəfəlik yardımların göstərilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri, həmçinin milli mətbuatın inkişafındakı xidmətlərinə görə jurnalistlərin fəxri adlarla təltif edilməsi haqqında sərəncamlar da mətbuata və bu sahədə çalışanlara göstərilən qayğının tərkib hissəsidir. Azərbaycan dövlətinin milli mətbuatımızın inkişafına göstərdiyi qayğı və diqqətin başqa bir təzahürü isə dünyanın heç bir ölkəsində analoqu olmayan ”Jurnalistlər şəhərciyi”nin yaradılmasıdır. Belə ki, Prezident İlham Əliyev mətbuat işçilərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və onlar üçün yaşayış evlərinin tikilməsi məqsədilə 2010-cu il Prezidentin ehtiyat fondundan Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fonduna vəsait ayrılması mətbuat tariximizdə mühüm hadisə kimi dəyərləndirildi.

Söz azadlığı, mətbuatın müstəqilliyi, insan hüquq və azadlıqlarının qorunması dövlət siyasətinin əsas prioritetlərindən biridir. Azad mətbuatın inkişafı bir çox proseslərin şəffaflığına və hakimiyyətin üç ”klassik” qolunun (icra, qanunverici, məhkəmə) fəaliyyətinin yaxşılaşdırılmasına xidmət edir. Ölkəmizdə mətbuat və söz plüralizmi təmin olunur, bu da öz növbəsində mətbuatın inkişafını təmin edir. Bundan əlavə azad mətbuatın inkişafı, iqtisadi müstəqilliyin təmin edilməsi, reklam bazarında müəyyən nöqsanların aradan qaldırılması, sosial vəziyyətin yaxşılaşdırılması məqsədilə xüsusi proqramlar hazırlanmış və həyata keçirilməsi məqsədilə hüquqi baza yaradılmışdır.

2002-ci ildə Ümummilli Lider Heydər Əliyevin ”RUH” Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi tərəfindən ”Jurnalistlərin dostu” adına layiq görülməsi bir daha göstərdi ki, milli mətbuatın inkişafına xüsusi diqqət və qayğı göstərən Ulu Öndər Heydər Əliyev jurnalistlərin gerçək hamisidir. Əsası Ulu Öndərimiz tərəfindən qoyulan və mətbuata qayğını, dost münasibəti özündə əks etdirən siyasi kurs hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev 2010, 2013, 2017 və 2018-ci illərdə ”Ruh” Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi tərəfindən təsis olunmuş ”Jurnalistlərin dostu” mükafatına layiq görülmüşdür.

Dövlətin diqqət və qayğısını yüksək qiymətləndirən mətbuat işçiləri 44 günlük Vətən müharibəsində və müharibədən sonrakı dövrdə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında əvəzolunmaz rol oynayaraq fədakarlıq və qəhrəmanlıq nümayiş etdirdilər. Məhz onların peşəkarlığı, fədakarlığı və çevikliyi sayəsində dünya ictimaiyyətinə müharibə ilə əlaqədar, o cümlədən rəsmi İrəvanın törədiyi hərbi cinayətlər haqqında dolğun məlumatların çatdırılması mümkün oldu. İki vətənpərvər jurnalistimizin peşə vəzifələrini yerinə yetirən zamanı Kəlbəcər rayonu ərazisində minaya düşərək həlak olması faktı beynəlxalq jurnalistlər birliyinin sərt reaksiyasına səbəb olmuşdur. Azərbaycanın mətbuat işçiləri fasiləsiz davam edən informasiya müharibəsində öz peşəkarlığı və vətənpərvərliyi ilə daim fərqlənmiş, bölgədə baş verən proseslərin dünya ictimaiyyətinə çatdırılmasını təmin etmişlər.

Söz azadlığı, mətbuatın müstəqilliyi, insan hüquq və azadlıqlarının qorunması Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin əsas prioritetlərindən biri idi. Azərbaycan mətbuatının böyük hamisi və qayğıkeşi, mətbuatın missiyasını və funksiyasını dərindən başa düşən, onu lazımınca qiymətləndirməyi bacaran Ümummilli Lider Heydər Əliyev 1998-ci ildə mətbuat üzərində senzuranı ləğv etdi. 2003-cü ilin mart ayında Azərbaycan jurnalistlərinin qurultayında media-ictimaiyyət, media-hakimiyyət münasibətlərini tənzimləyən qurum - Azərbaycan Mətbuat Şurası yaradıldı. Bütün bunlar öz növbəsində Azərbaycanda söz, fikir və mətbuat azadlığının bərqərar olunması üçün əlamətdar tarixi hadisələr kimi qiymətləndirilməlidir.

Prezident İlham Əliyev daim medianın problemləri ilə maraqlanır, jurnalistlərlə görüşür, KİV-lərin hərtərəfli inkişafı üçün zəruri addımlar atır. Mətbuat orqanlarının maddi-texniki bazasının gücləndirilməsi, jurnalist əməyinin qiymətləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin miqyası daha da genişlənib. Jurnalistlərlə səmimi münasibətlər, daim onlarla ünsiyyət qurması bu reallığın təzahürüdür. Mətbuatımızın qabaqcıl və mütərəqqi ənənələrini yaşatmaqla, xalqımızın tarixi-milli xüsusiyyətlərini qorumaqla inkişaf etməsini vacib sayan Prezident İlham Əliyev söz və mətbuat azadlığını demokratiyanın fundamental şərti hesab edir. ”Azərbaycanda aparılan siyasi islahatların əsas mənası, məqsədi ondan ibarətdir ki, ölkəmiz hərtərəfli inkişaf etsin, ölkədə yaşayan hər bir vətəndaş bütün azadlıqlardan istifadə etsin. Azərbaycanda o cümlədən mətbuat azadlığı da mövcuddur. Biz bu məsələdə çox ciddi addımlar atırıq. Söz azadlığının, mətbuat azadlığının təmin olunması bizim prioritet məsələmizdir və deyə bilərəm ki, Azərbaycan bu sahədə böyük uğurlara nail olmuşdur” - deyə Prezident İlham Əliyev bildirib. Prezident İlham Əliyevin göstərişi ilə milli mətbuatın yubileylərinin qeyd olunması, KİV-ə birdəfəlik yardımların göstərilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri, həmçinin bu sahənin inkişafındakı xidmətlərinə görə jurnalistlərin fəxri adlarla təltif edilməsi haqqında sərəncamlar da dövlət qayğısının tərkib hissəsidir.

***Redaktor***

# Şəhidlərin xatirəsinə həsr olunmuş futbol çempionatı





2-28 avqust 2021-ci il tarixlərdə Qobustan Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Qobustan rayon İdman Kompleksində şəhidlərimizin xatirəsini əbədiləşdirmək, gənclər arasında vətənpərvərlik hissini daha da gücləndirmək, pandemiya dövründə idmançıların asudə vaxtının səmərəli təşkili, futbol idman növünə olan marağının artırılması məqsədilə Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə həsr olunmuş futbol üzrə rayon çempionatı keçirilmişdir. Çempionatda dörd qrupda 16 komanda mübarizə aparmışdır. Növbəti mərhələdə qruplarda 1-ci və 2-ci yeri tutmuş "Qobustan İH", "Mühafizə", "Gənclik-N", "Nabur", "Ərəbşahverdi", "Qobustan FC", Poladlı və "FHN" komandaları "play-off" sistemi ilə yarışmışlar.

Avqust ayının 28-də keçirilmiş final oyununda "Qobustan FC" və "Ərəbşahverdi" komandaları qarşılaşıblar. Maraqlı idman mübarizəsi şəraitində keçən qarşılaşma 2:1 hesabı ilə "Qobustan FC" komandasının xeyrinə qurtarmışdır. Final matçından sonra mükafatlandırma mərasimi keçirilmişdir. Vətənimizin bütövlüyü uğrunda canlarından keçərək şəhid olmuş qəhrəman Azərbaycan oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Qobustan Rayon İcra Hakimiyyətinin baş məsləhətçisi Vasif Zamanov, Gənclər və İdman İdarəsinin rəis müavini Vüqar Mürsəlov, Qobustan Olimpiya İdman Kompleksinin direktoru Famil İsmayılov çıxış edərək bildirmişlər ki, 44 günlük Vətən Müharibəsi ilə tarixi qələbəyə çevrilən Zəfər salnaməsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilmişdir. Bu möhtəşəm qələbə, böyük xoşbəxtlik Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, müzəffər Ordumuzun şücaəti, qəhrəmanlığı, qorxmaz, cəsur əsgərlərimizin canı, müqəddəs, ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına əldə edilmişdir.

Sonda qaliblərə kubok, diplom, fəxri fərman və medallar təqdim edilmişdir.





# Yeni çempionlar yetişir

Vətən Müharibəsi Qəhrəmanı, Şəhid Elyar Vəliyevin bacısı oğlu 11 yaşlı Abdulla Xanputayev Qəbələ şəhərində keçirilmiş Şəhid General Polad Həşimovun xatirəsinə həsr olunmuş çoxmübarizəli idman döyüş növləri üzrə Respublika turnirində (MMA növdə) I yeri tutmuş və kəmərə layiq görülmüşdür.

Abdullanı təbrik edir, daha böyük uğurlar arzulayırıq.

# 2021-ci ilin sentyabr ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr, hesabatlar, ödənilməli vergilər və sığorta haqları barədə yaddaş

**15 sentyabr**

Məcburi dövlət sosial sığorta haqqı: Hər ay üçün hesablanır, əməkhaqqı və digər gəlirlər üzrə ödənişlərlə eyni vaxtda, lakin sonrakı ayın 15-dən gec olmayaraq ödənilir.

**İşsizlikdən sığorta haqqı:** Hər ay üçün hesablanmış sığorta haqqı sığortaedən tərəfindən əməkhaqqı ödənişləri ilə eyni vaxtda, lakin sonrakı ayın 15-dən gec olmayaraq, tam məbləğdə ödənilir.

**İcbari tibbi sığorta haqqı:** Hər ay üzrə əməkhaqqı ödənişləri ilə eyni vaxtda, lakin sonrakı ayın 15-dən gec olmayaraq tam məbləğdə ödənilir.

**20 sentyabr**

**Gəlir vergisi (Xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübüdür. Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablamalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidir.

**Gəlir vergisi (İdman mərc oyunları, lotereyalar, habelə digər yarışlar və müsabiqələr üzrə):** İdman mərc oyunlarından, lotereyalardan, habelə digər yarışlar və müsabiqələrdən uduşlar (mükafatlar) əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır. İdman oyunları ilə əlaqədar aparılan idman mərc oyunlarından, lotereyaların keçirilməsindən, habelə digər yarışlardan və müsabiqələrdən uduşlar (mükafatlar) əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində gəlir vergisini hesablayaraq tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və həmin müddətədək "Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi"ni vergi orqanına verməyə borcludurlar. Lotereyaların keçirilməsindən, digər yarışlardan və müsabiqələrdən gəlir (mükafat) rezident şəxslər tərəfindən ödənildiyi halda ödəməni həyata keçirən şəxslər, həmin gəlirlər Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezident şəxslər tərəfindən ödənildikdə isə bu gəliri əldə edən şəxsin bank hesabının olduğu yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru ödəmə mənbəyində gəlir vergisi hesablayaraq tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və həmin müddətədək "Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi"ni vergi orqanına təqdim etməyə borcludurlar.

**Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**Yol vergisi üçün hesabat dövrü təqvim ayı sayılır.** Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq "Yol vergisinin bəyannaməsi"ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**Sadələşdirilmiş vergi (Daşınmaz əmlakın təqdim edilməsi üzrə):** Bu fəaliyyət üzrə sadələşdirilmiş vergi üçün hesabat dövrü aydır. Daşınmaz əmlakın təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq "Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi"ni vergi orqanına verməyə borcludurlar.

**Sadələşdirilmiş vergi (Pul vəsaitlərinin nağd qaydada çıxarılması üzrə):** Bu fəaliyyət üzrə sadələşdirilmiş vergi üçün hesabat dövrü aydır. Hüquqi şəxslərə və fərdi sahibkarlara bank hesablarındakı pul vəsaitlərinin nağd qaydada verilməsini həyata keçirən yerli banklar, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru tərəfindən 1 faiz hesablanan vergini vəsaiti alan şəxsin bank hesabından tutulur, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergi dövlət büdcəsinə köçürülür və həmin müddətədək "Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi" vergi orqanına təqdim edilir.

**Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Sığorta müqaviləsi vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi: Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.


## ELAN

Qobustan rayon sakini Şixəliyev Amil Ağalı oğlu və ailə üzvlərinin adına DT və XK-itərəfindən verilmiş həyətyanı torpaq sahəsinin planı və ölçüsü itmişdir. Tapan şəxslərdən xahiş olunur Qobustan RPŞ-nə təqdim etsinlər.

Qobustan rayon Təklə kənd sakini Baxışov Bəhman Teymur oğluna məxsus AE048573 seryalı sürücülk vəsiqəsi itmişdir. Tapan şəxslərdən xahiş olunur Qobustan RPŞ-nə təqdim etsinlər.

Qobustan rayon sakini Qaragedəyev Bahəddin Allahverdi oğlunun adına DT və XK-itərəfindən verilmiş Qobustan şəhərində yerləşən torpaq sahəsinin planı və ölçüsü itmişdir. Tapan şəxslərdən xahiş olunur Qobustan RPŞ-nə təqdim etsinlər.



*Təsisçi:* Qobustan Rayon İcra Hakimiyyəti

www.qobustan-ih.gov.az

*Baş redaktor:* Ruslan Şahbazov
Tel.: (050) 524 28 10
(070) 224 28 10

*Ünvan:* Qobustan şəhəri, Heydər Əliyev prospekti. Qobustan Rayon İcra Hakimiyyətinin binası.
Qəzet ayda iki dəfə çıxır

Qəzet "Son dəqiqə" mətbəəsində çap olunmuşdur
Tiraj: 2000
E_mail:qobustanqazeti@mail.ru